# Mündəricat


01 Təhsilə Baxış 2024

02 Müəllimlər üçün süni intellekt bacarıqları çərçivəsi

03 Dil öyrənmə sorğusunun nəticələri

04 Gələcəyimizi seçmək: İqlim dəyişikliyi üçün təhsil və onun təsirləri

05 Çətin kontekstlərdə təhsilin təşviqi: Təcrübələrdən öyrənilən dərslər

# Təhsilə Baxış 2024

01

Cari ayda OECD tərəfindən "Təhsil Baxışı 2024" adlı illik hesabat təqdim olunmuşdur. Hesabatda dünya üzrə təhsil sistemlərinin ümumi vəziyyətindən, təhsil nailiyyətlərindən və maliyyə resurslarının necə idarə edildiyindən bəhs edilir. Hesabatın əsas istiqamətlərini təhsilin əmək bazarına, sosial həyata təsiri təhsildə iştirak, proqres və maliyyə məsələləri təşkil edir. Eyni zamanda təhsildə bərabərlik və maliyyə resurslarının səmərəli bölüşdürülməsinə xüsusi diqqət yetirilib.

**Təhsil müəssisələrinin məhsuldarlığı və təhsilin təsiri**

Hesabatda yetkinlərin təhsil səviyyəsi, təhsilin əmək bazarına və sosial həyat göstəricilərinə təsiri ətraflı təhlil olunur. Belə ki, OECD ölkələrində 25-34 yaş arası yetkinlərin təhsil səviyyəsi artmış, ali təhsil almayan gənclərin faizi 17%-dən 14%-ə enmişdir.

**Təhsilə giriş, iştirak və proqres**

Bir çox OECD ölkəsi erkən uşaqlıq təhsilinə daha çox vəsait ayırmaqla təhsilə bərabər giriş imkanlarını təmin etməyə çalışır. Belə ki, Almaniya və Litva kimi ölkələrdə bu sahəyə ayrılan dövlət vəsaitlərinin əhəmiyyətli dərəcədə artdığı müşahidə olunur. Məsələn, Almaniyada bu göstərici 9% artımla diqqəti çəksə də Türkiyə və Meksika kimi ölkələrdə isə daha aşağıdır və iştirak səviyyələri 50% ətrafındadır.
Erkən uşaqlıq təhsili sahəsində isə iştirak nisbətləri artmaqdadır. Lakin aşağı gəlirli ailələrin uşaqları üçün təhsilin əlçatanlığı bəzi ölkələrdə hələ də məhdud olaraq qalır. Odur ki, bu sahədə dövlətlərin əlavə təşəbbüsləri vacibdir.
İbtidai və ümumi orta təhsil səviyyələrində müxtəlif ölkələr arasında təhsil proqramlarının və şagird nisbətlərinin müqayisəsi müəyyən xüsusiyyətləri göstərir. Bu səviyyələrdə proqramların strukturu və qeydiyyat nisbətləri hər ölkədə fərqli icra olunur.

Almaniya kimi ölkələrdə şagirdlər ümumi orta təhsil səviyyəsində ümumi və peşə təhsili arasında seçim edə bilirlər.
Finlandiyada isə bütün şagirdlər üçün eynidərəcəli təhsil proqramı təklif olunur və şəxsi inkişaf mərkəzləri ilə dəstəklənir
Hesabatda qeyd olunur ki, ümumi və peşə təhsilində yuxarı orta səviyyədə təhsil proqramlarının əsas komponentləri və nəticələrinin müqayisəsi müxtəlif ölkələrdə dəyişir. Qeyd olunur ki, ümumi təhsil adətən ali təhsilə keçid üçün, peşə təhsili isə birbaşa əmək bazarına hazırlaşmaq üçün nəzərdə tutulmuşdur.
Təqdim olunan cari hesabatda bir sıra ölkələrin təhsil mənzərəsi öz əksini tapır. İsveçrə və Avstriya kimi ölkələrdə peşə təhsili üstünlük təşkil etməklə yanaşı şagirdlərə iş bazarına daha sürətlə daxil olmaq imkanı verir.

Fransa və İtalyada isə ümumi təhsil proqramları daha geniş yayılmışdır. Belə ki, bu ölkələrdə şagirdlərin akademik istiqamətə yönəlməsinə yardım edir.
Həmçinin, ali təhsildə qadınların kişilərə nisbətdə üstünlük təşkil edildiyinin müşahidə olunduğu da hesabatda vurğulanır. Qeyd olunur ki, OECD- ə daxil olan ölkələr üzrə qadınların 54%-i ali təhsil alıb, kişilərdə isə bu göstərici 41%-dir.
Habelə, tibb və mühəndislik sahələrində qadın tələbələrin iştirakı Kanada və Avstraliya kimi ölkələrdə daha çox nəzərə çarpır.
Cənubi Koreya və Yaponiya kimi ölkələrdə isə texnologiya və təbiət elmləri sahələrində isə kişi tələbələr üstünlük təşkil edir. Lakin təhsil səviyyəsində olan bu irəliləyiş əmək bazarında genderlər arasında maaş fərqini aradan qaldırmır.

**Təhsilə yatırılan maliyyə resursları**

Təhsilə qoyulan maliyyənin təhsilin keyfiyyətinə birbaşa təsir göstərdiyi hesabatda öz əksini tapır. Bu sahəyə həm dövlət, həm də özəl sektorun yatırımları detallı şəkildə təqdim olunur.



1. Tələbə başına xərclər
OECD ölkələri ildə ortalama olaraq hər tələbəyə 12,000 ABŞ dolları xərcləyir. Tələbə başına düşən xərclər təhsil səviyyəsinə görə dəyişir. Məsələn, ali təhsildə bu məbləğ daha yüksəkdir. Lüksemburq və İsveçrə kimi ölkələrdə tələbə başına xərclər 20,000 ABŞ-nin dollarını keçib. İbtidai və orta təhsil sahəsində isə nisbətən daha balanslı xərclər müşahidə olunur. Norveç və Danimarka kimi ölkələr təhsil sahəsinə əhəmiyyətli resurslar ayırır.

2. ÜDM-dən təhsilə ayrılan faiz
OECD üzrə orta hesabla təhsilə ÜDM-in 5%-i ayrılır. Norveç və İsveç kimi ölkələr təhsilə daha çox resurs ayıraraq, ÜDM-in 6%-dən çoxunu bu sahəyə sərf edir. Bu ölkələrdə dövlət tərəfindən təhsilə edilən yüksək sərmayələr təhsilin daha yüksək keyfiyyəti ilə nəticələnir. Bununla yanaşı, Meksika və Türkiyə kimi ölkələr ÜDM-in daha az hissəsini təhsilə yönəldir. Bu da onların təhsil nəticələrinin nisbətən zəif olmasına səbəb olur.

3. İctimai və özəl investisiyalar
Təhsil maliyyələşməsində əsas yük dövlət sektorunun üzərinə düşsə də ali təhsil sahəsində özəl sektorun rolu da böyükdür. Amerika Birləşmiş Ştatları ali təhsilin 45%-ni özəl mənbələrdən maliyyələşdirir. Danimarka və Finlandiya isə ali təhsil sahəsində əsasən dövlət vəsaiti ilə işləyir və təhsil haqları mövcud deyil.

**Dövlətin təhsilə ayrılan vəsaitləri**

Həmçinin hesabatda dövlətin təhsilə ayırdığı maliyyə vəsaitlərinin miqdarı və bu vəsaitlərin təhsil sistemlərinə təsiri araşdırılır. OECD ölkələrində ortalama ÜDM-in 5%-i təhsilə yönəldilir. Lakin Norveç və İsveç kimi ölkələr ÜDM-lərinin 6%-dən çoxunu təhsilə sərf edir. İtaliya kimi bəzi ölkələr isə təhsilə daha az vəsait ayırır və bu təhsil sisteminin inkişafını məhdudlaşdırır.

Dövlətin təhsilə ayırdığı resurslar əsasən müəllimlərin maaşları, infrastrukturun təkmilləşdirilməsi və yeni texnologiyaların tədris prosesinə inteqrasiyasına sərf edilir. Bu xüsusilə Almaniya, Fransa və Böyük Britaniya kimi ölkələrdə hiss olunur. Burada dövlət təhsil büdcələrini artıraraq, erkən uşaqlıq təhsilindən ali təhsilə qədər geniş əhatəli dəstək proqramları təqdim edir.

Maliyyə resurslarının bərabər paylanması isə təhsildə bərabərliyi təmin etmək baxımından önəmlidir. Almaniya və Şimali Avropa ölkələri təhsilə ayırdığı resursları hərtərəfli olaraq sosial cəhətdən zəif bölgələrə yönəldir. Eyni zamanda burada müəllim çatışmazlığının qarşısını almaq üçün xüsusi maliyyə dəstəyi proqramları tətbiq edilir.

**Ali təhsildə tələbə xərcləri və dövlət dəstəyi**

Ali təhsil sahəsində tələbələrin maliyyə yükü ölkədən-ölkəyə dəyişir. Böyük Britaniya, ABŞ və Avstraliya ali təhsil sahəsində yüksək təhsil haqlarına malikdir. Böyük Britaniyada tələbələr hər il orta hesabla 12,000 ABŞ dolları təhsil haqqı ödəyir. Bu ölkələrdə tələbələrə təhsil borcları ilə dəstək verilsə də borcların geri qaytarılması yüksək faizlə olur. Bu borclar uzun müddətli ödəmə planları ilə təhsil aldıqları dövrdə maliyyə yükünü yüngülləşdirir. ABŞ-da bu borclar yüksək faizlə geri qaytarılır. Avstraliya və Yeni Zelandiya isə daha sərfəli faiz dərəcələri ilə borclar təqdim edir.

Avropa ölkələrinin bir çoxunda isə ali təhsil ya pulsuzdur, ya da çox aşağı məbləğdədir. Norveç, Finlandiya və Almaniya ali təhsili pulsuz təmin edən ölkələr arasındadır. Bu ölkələrdə tələbələrə təhsil haqlarından əlavə maddi dəstək, təqaüd proqramları və yaşayış yardımı da verilir. Məsələn, Fransa və Almaniya tələbələrə təqaüd proqramları, aylıq yaşayış dəstəyi və təhsil materiallarına güzəştlər təqdim edir.

Danimarka və İsveç kimi ölkələrdə tələbələrə həm pulsuz təhsil, həm də əlverişli şərtlərlə tələbə kreditləri təqdim olunur. Aşağı gəlirli ailələrdən olan tələbələrin ali təhsilə çıxışını asanlaşdırmaq üçün tam təqaüdlər və qrantlar təqdim edilir.

**Təhsil üçün maliyyə vəsaitlərinin istifadəsi**

Hesabatda həmçinin təhsilə ayrılan maliyyə vəsaitlərinin hansı sahələrdə istifadə edildiyi və bu vəsaitlərin təhsil prosesinə təsiri  araşdırılır. Təhsilə yönəldilən resurslar müxtəlif sahələrdə istifadə olunur: müəllimlərin maaşları, təhsil infrastrukturu, texnoloji vasitələrin təmin edilməsi və təhsil proqramlarının təkmilləşdirilməsi kimi sahələrə sərf edilir.




Təhsil sahəsində maliyyə vəsaitlərinin ən böyük hissəsi müəllimlərin maaşlarına və təhsil infrastrukturuna sərf olunur. Finlandiya və Şərqi Avropa ölkələri müəllimlərin maaşlarını artıraraq, təhsil keyfiyyətini yüksəltmişdir. Cənubi Koreya və Yaponiya təhsil sahəsində rəqəmsallaşmaya və texnoloji yeniliklərə xüsusi diqqət ayırır. Təhsildə infrastrukturun yaxşılaşdırılması, yeni məktəblərin tikilməsi və mövcud binaların təkmilləşdirilməsi də ön plandadır. Kanada, Avstraliya və Yeni Zelandiya kimi ölkələr kənd yerlərində təhsilin əlçatanlığını artırmaq üçün genişmiqyaslı proqramlar həyata keçirir.

Maliyyə resurslarının düzgün istifadə edilməsi təhsil sisteminin dayanıqlı inkişafını təmin edir. OECD ölkələri arasında təhsilə ayrılan vəsaitlərin səmərəli və planlı istifadəsi təhsilin keyfiyyətini artırmaq üçün vacibdir. Xüsusilə, iqtisadi cəhətdən zəif bölgələrə daha çox resurs ayırmaqla təhsildə bərabərliyə nail olmaq mümkündür.

**Nəticə**

Ümumilikdə, təhsilə ayrılan dövlət və özəl vəsaitlərin bərabər şəkildə bölüşdürülməsi təhsilin keyfiyyətinin artırılması, sosial ədalətin təmin edilməsi və iqtisadi inkişafın sürətlənməsi üçün mühüm əhəmiyyət kəsb edir.

Mənbə: OECD (2024), Education at a Glance 2024: OECD Indicators, OECD Publishing, Paris,
https://doi.org/10.1787/c00cad36-en

# Müəllimlər üçün süni intellekt bacarıqları çərçivəsi

UNESCO tərəfindən nəşr olunan "**Müəllimlər üçün süni intellekt  bacarıqları çərçivəsi**" müəllimlərə süni intellektin (Sİ) tədris təcrübələrinə inteqrasiyası üzrə əhatəli təlimat təqdim edir. Bu çərçivə müəllimlərin Sİ-nin təsirli istifadəsi üçün lazımi bacarıqlarla təmin edilməsinin vacibliyini vurğulayır. Eyni zamanda təhsil mühitində etik standartlara riayət olunmasını, kadr heyətinin qorunmasını hədəfləyir.

**Məqsəd və hədəf auditoriyası**

Çərçivə müəllimlərin süni intellektlə bağlı təlimlərində mövcud olan boşluğu aradan qaldırmağı hədəfləyir və süni intellekt (Sİ) dövründə təhsil dinamikasında baş verən dəyişikliklərə diqqət yetirir. Süni intellekt (Sİ) müəllim və tələbə münasibətlərini ənənəvi modellərdən çıxarır. Lakin, bir çox ölkədə müəllimlərin Süni intellekt (Sİ) bacarıqlarını inkişaf etdirmək üçün milli proqramların olmaması bu dəyişiklikləri idarə etmək üçün müəllimləri uyğun alətlərdən məhrum edir.

Çərçivə əsasən siniflərində süni intellekti (Sİ) tətbiq edən müəllimlər üçün nəzərdə tutulub. Lakin, bu təlimat siyasətçilər, təhsil mütəxəssisləri və təhsil birlikləri üçün də faydalıdır. Çərçivə müəllimlərin Süni intellekt (Sİ) alətlərini təhlükəsiz və səmərəli şəkildə mənimsəməsi, qəbul etməsi və tətbiq etməsi üçün strukturlaşdırılmış yanaşma təqdim edir.

**Çərçivənin əsas prinsipləri**

Bu sənəd **insan mərkəzli düşüncə tərzini** vurğulayır və Süni intellektin (Sİ) təhsildə insan potensialını azaltmaq əvəzinə artırması üçün xidmət etməsini təmin edir. Çərçivə süni intellektin (Sİ) təhsil prosesində etik aspektlərin önə çəkilməsini, müəllimlərin öyrənməni asanlaşdırması üçün dəstəkçi rolunu gücləndirir. Bu yanaşma Süni intellektin (Sİ) məxfilik hüququna hörmət etməsini, inklüzivliyi təşviq etməsini və empatiya, əməkdaşlıq kimi sosial dəyərlərin qorunmasını təmin edir.
Çərçivədə vurğulanan əsas məsələlərdən biri də, Süni intellekt (Sİ) etik istifadəsidir. Müəllimlərə Süni intellekt (Sİ) alətlərini məsuliyyətlə və şəffaf şəkildə istifadə etmək tövsiyə edilir. Sənəddə, müəllimlərin hüquqlarının qorunmasının və peşəkar müstəqilliyin təmin edilməsinin vacibliyi də öz əksini tapır. Belə ki, süni intellekt (Sİ) alətləri müəllimlərə köməkçi rolunu oynamalı və onları əvəz etməməlidir.

**Çərçivənin strukturu**

Çərçivə müəllimlər üçün Süni intellekt (Sİ) bacarıqları ətrafında qurulmuş beş əsas aspektə əsaslanır:
**İnsan mərkəzli düşüncə tərzi:** Müəllimlər Süni intellektin (Sİ) insan inkişafına və təhsilə xidmət etməsini təmin etməlidir.
**Süni intellekt (Sİ) etikası:** Müəllimlər Süni intellektin (Sİ) etik nəticələrini, o cümlədən məlumatların məxfiliyini, bərabərliyi və məsuliyyətli istifadəsini təmin etməlidirlər.
**Süni intellektin (Sİ) əsasları və tətbiqləri:** Müəllimlər Süni intellekt (Sİ) texnologiyalarını və onların təhsil mühitində necə tətbiq ediləcəyini mənimsəməlidirlər.
**Süni intellekt (Sİ) pedaqogikası:** Süni intellektin (Sİ) dərsin planlaşdırılmasında, tədrisdə və qiymətləndirmədə necə inteqrasiya olunacağına dair təlimatlar təqdim olunmalıdır.
**Peşəkar inkişaf üçün süni intellekt (Sİ):** Süni intellekt (Sİ) müəllimlərin davamlı peşəkar inkişafını dəstəkləyən bir vasitə kimi təqdim edilməli və əməkdaşlıq yolu ilə daimi inkişaf təşviq olunmalıdır.

**Bu beş aspekt üç səviyyəyə bölünür:**

- Əldə etmək: Süni intellek (Sİ)  haqqında minimal biliyi olan müəllimlər üçün təməl səviyyə.
- Dərinləşdirmək: Müəllimlərdən tədris təcrübələrinə Süni intellektin (Sİ) inteqrasiyasını və etik nəticələrin dərin təhlilini gözləyən orta səviyyə.
- Yaratmaq: Müəllimlərin Süni intellekti (Sİ) innovativ təhsil təcrübələrində tətbiq etdiyi qabaqcıl səviyyə.



**Tətbiq strategiyaları**

Süni intellektin (Sİ) uğurlu inteqrasiyasını təmin etmək üçün çərçivə bir neçə strategiya təklif edir:

1. **Süni intellekt (Sİ) alətlərinin tənzimlənməsi:** Təhsil mühitində Süni intellekt (Sİ) alətləri diqqətlə yoxlanılmalı, eyni zamanda, onların etik və təhlükəsizlik standartlarına cavab verdiyi təmin edilməlidir.
2. **Yerli çərçivələrin hazırlanması:** Ölkələr və təşkilatlar öz yerli kontekstlərinə uyğunlaşdırılmış Süni intellekt (Sİ) bacarıqları çərçivələrini yaratmalıdırlar.
3. **Davamlı peşəkar inkişaf:** Müəllimlərin müxtəlif bacarıq səviyyələrində davamlı təlim çox vacibdir.
4. **Performans əsaslı qiymətləndirmə:** Müəllimlərin Süni intellekt(Sİ) bacarıqlarını qiymətləndirmək və inkişaflarını izləmək üçün diaqnostik alətlər yaradılmalıdır.

**Nəticə**

**Müəllimlər üçün süni intellekt bacarıqları çərçivəsi** təhsildə süni intellektin (Sİ) rolu haqqında davam edən müzakirələrə mühüm töhfə verir. Həmçinin, müəllimlər Süni intellektdən (Sİ) səmərəli istifadə edərək, etik məsuliyyətlərini qorumaq üçün lazım olan bilik və bacarıqları aydınlaşdırır. Bundan əlavə, sənəd Süni intellektin (Sİ) qarşılıqlı əlaqəsini gücləndirmək və müəllimlərin davamlı təhsil prosesini dəstəkləmək üçün bir alət kimi xidmət etməsini, müəllimlərin isə əvəzolunmaz rolunun qorunmasını müdafiə edir.

Bu çərçivə qlobal səviyyədə qəbul edilən bir yanaşmanın əsasını qoyur. Bunula da, ölkələri təşkilatları bu təlimatları qəbul etməyə və müəllimləri təhsilin gələcəyinə hazırlamağa təşviq edir.

Mənbə: UNESCO. (2024). AI competency framework for teachers (F. Miao & M. Cukurova, Authors).
https://doi.org/10.54675/ZJTE2084

# Dil öyrənmə sorğusunun nəticələri

03

Dil öyrənmə və çoxdillilik Avropa ölkələrinin təhsil sistemində mühüm rol oynayır. Avropa ölkələrinin çoxdilli təhsil siyasətləri, şəxsi inkişaf və beynəlxalq əlaqələrin gücləndirilməsi üçün əhəmiyyətli bir vasitə kimi qiymətləndirilir. UNESCO Avropada dil təhsilinin vəziyyətini və gələcək perspektivlərini təhlil edən "Dil Öyrənmə Sorğusu" keçirmişdir. Sorğu çoxdilliliyi, Avropa Şurasının ömür boyu öyrənmə üçün əsas kompetensiyalarından biri olaraq vurğulamışdır. Eyni zamanda, dil təhsilinin Avropa məktəblərində necə həyata keçirildiyinə dair dəyərli məlumatlar toplamışdır.

Sorğuda əsasən, İtaliya, İspaniya, Türkiyə və Yunanıstandan olan 1109 ibtidai və orta məktəb müəllimi iştirak etmişdir. Sorğu dil öyrənmə strategiyalarının effektivliyini, tədris prosesində istifadə olunan metodların və texnologiyaların təsirini araşdırır. Eyni zamanda gələcəkdə süni intellektin (Sİ) və texnologiyanın dil təhsilində oynaya biləcəyi rolu nəzərdən keçirir.
Dil öyrənmə sorğusunun məqsədi Avropa ölkələrində dil təhsilinin mövcud vəziyyətini və bu sahədə mövcud olan çətinlikləri müəyyən etməkdir. Sorğu Avropa ölkələrində məktəblərdə hansı dillərin təklif olunduğunu, şagirdlərin dil öyrənməyə maraq səviyyələrini və istifadə olunan tədris strategiyalarını təhlil etmişdir. Bundan əlavə sorğu dil tədrisində hansı metodların daha təsirli olduğunu, şagirdlərin motivasiyasını artırmaq üçün hansı tədbirlərin görüldüyünü və gələcəkdə dil öyrənmə prosesinin necə inkişaf etdirilə biləcəyini də əhatə edir.
Sorğu nəticələrinə görə dil təhsilində texnologiyanın və süni intellektin artan istifadəsi ilə bağlı gözləntilər də ön plana çıxır. Bu da gələcəkdə təhsil sahəsində texnologiyaların necə tətbiq olunacağına dair müzakirələr üçün zəmin yaradır.

**Məktəblərdə təklif olunan dillər:** Sorğunun nəticələrinə görə, Avropa məktəblərində xarici dil təhsili geniş yayılmışdır. Respondentlərin təxminən 24%-i məktəblərdə bir xarici dilin, 41%-i isə iki xarici dilin tədris olunduğunu bildirmişdir. Üç xarici dil təklif edən məktəblər 21% təşkil edir, dörd və ya beşdən çox xarici dil təklif edən məktəblər isə müvafiq olaraq 7% və 5%-dir. Bu rəqəmlər Avropada xarici dil tədrisinin əhəmiyyətli olduğunu və məktəblərin çoxdilli təhsil təklif etdiyini göstərir.
**Şagirdlərin dil öyrənməyə marağı:** Şagirdlərin dil öyrənməyə maraqları müxtəlif səviyyələrdə olsa da, orta səviyyəli maraq üstünlük təşkil edir. Sorğuya əsasən müəllimlərin 51%-i şagirdlərinin dil öyrənməyə orta səviyyədə maraq göstərdiyini bildirmişdir. Bununla belə respondentlərin 30%-i şagirdlərinin yeni dilləri öyrənməyə yüksək və ya çox yüksək, 18%-i isə şagirdlərin dil öyrənməyə az maraq göstərdiyini bildirmişdir. Bu nəticələr şagirdlərin dil öyrənməyə daha çox cəlb edilməsi üçün əlavə tədbirlərin görülməsinin zəruriliyini vurğulayır.
**Dil tədrisində istifadə olunan strategiyalar:** Dil tədrisində müxtəlif strategiyalardan istifadə olunmaqdadır. Respondentlərin 70%-i ünsiyyət yönümlü metodların geniş şəkildə tətbiq edildiyini bildirmişdir. Eyni zamanda məktəblərdə 62% autentik materiallardan (qəzetlər, jurnallar, podkastlar və s.) istifadə və 60% şagirdlərin özünü idarə edən öyrənmə metodlarına cəlb edilməsi kimi yanaşmalar tətbiq olunur. Eyni zamanda 58% dil öyrənmə tətbiqləri və onlayn platformalar da geniş yayılmışdır. Digər tədris metodları, o cümlədən məzmun və dilin inteqrasiya olunmuş öyrənməsi (CLIL), formativ qiymətləndirmə üsulları da geniş tətbiq olunmaqdadır. Bununla belə e-portfellər, əks sinif modeli (flipped classroom), əlavə dərs fəaliyyətləri və süni intellekt alətləri dil öyrənmə üçün daha az istifadə olunan metodlar arasındadır.

**Dil öyrənmədə qarşılaşılan çətinliklər**
Respondentlər dil tədrisində qarşılaşdıqları əsas çətinliklərdən bəhs ediblər. 53% respondent ən əhəmiyyətli problemlərdən birinin şagirdlərin sinifdən kənarda hədəf dilə məhdud çıxışı olduğunu bildirmişlər. Digər əsas çətinliklərə böyük sinif ölçüləri, autentik dil praktikası imkanlarının çatışmazlığı və şagirdlər arasında motivasiya səviyyəsinin aşağı olması daxildir. Eyni zamanda məhdud tədris vaxtı və müxtəlif öyrənmə ehtiyacları üçün qeyri-kafı dəstək də məktəblərdə dil öyrənmənin səmərəsini azaldan əsas amillər kimi qeyd olunmuşdur.



**Dil öyrənməni artırmaq üçün effektiv strategiyalar**

Müəllimlər dil öyrənməni təkmilləşdirmək üçün bir neçə effektiv strategiyanı vurğulamışlar. Respondentlərin 62%-i mübadilə proqramları və yerli danışanlarla tərəfdaşlıqların dil öyrənməni artırmaq üçün ən təsirli yanaşma olduğunu qeyd etmişdir. Aktiv öyrənmə metodları, əlavə dərs fəaliyyətləri və texnologiya ilə zənginləşdirilmiş öyrənmə vasitələri də respondentlər tərəfindən dəyərli strategiyalar kimi qiymətləndirilmişdir. Dil tədrisində fərdi yanaşmanın vacibliyi və dil müəllimlərinin peşəkar inkişafının davamlı olaraq dəstəklənməsi də təklif edilmişdir.

**Dil öyrənmənin gələcəyi**

Gələcəkdə dil öyrənmə sahəsində bir sıra mühüm trendlər gözlənilir. Respondentlərin 48%-i mübadilə proqramlarının və sərhədüstü məktəb tərəfdaşlıqlarının artmasını gözləyir. 32% dil tədrisində effektiv təcrübələrin daha çox vurğulanacağı proqnozlaşdırılır. Həmçinin uşaqlar üçün erkən yaşlarda dil öyrənmənin təşviqi və fərdiləşdirilmiş öyrənmə yolları üçün süni intellektin istifadəsi də önəmli gözləntilər arasındadır. Bundan əlavə süni intellektin və texnologiyanın o cümlədən virtual və artırılmış reallığın dil təhsilinə necə inteqrasiya olunacağı da müzakirə mövzularındandır.

Bütün bu qeyd olunanlar "Dil öyrənmə sorğusu" Avropa məktəblərində dil təhsilinin mövcud vəziyyəti və gələcək perspektivləri ilə bağlı əsaslı məlumat verir. Mövcud çətinliklərə baxmayaraq sorğu texnologiyanın və mədəni inteqrasiyanın dil öyrənmədə daha əhəmiyyətli rol oynayacağını göstərir. Süni intellektin və texnologiyanın dil təhsili prosesinə inteqrasiyası şagirdlərin dil bacarıqlarını artırmaq və tədris prosesini daha effektiv etmək üçün böyük potensiala malikdir.

Mənbə: Survey on Language Learning.
https://school-education.ec.europa.eu/en/discover/surveys/survey-language-learning-results

# Gələcəyimizi seçmək: İqlim dəyişikliyi üçün təhsil və onun təsirləri

İqlim dəyişikliyi bu gün bəşəriyyətin qarşılaşdığı ən böyük qlobal problemlərdən biridir. Bu problemlə bağlı 2024-cü ildə Dünya Bankı tərəfindən "Gələcəyimizi seçmək: İqlim dəyişikliyi üçün təhsil" adlı hesabat nəşr olunub. Hesabatda əsas diqqət təhsilə yönəlib. Belə ki, hesabatda təhsilin iqlim dəyişikliyi ilə mübarizədə oynadığı mühüm rol və onun vasitəsilə əldə edilə biləcək nəticələr ətraflı şərh edilib. Həmçinin qeyd olunur ki, təhsil iqlimə qarşı tədbirlərin təşviqində güclü vasitə ola bilər. Eyni zamanda araşdırmada bu sahədə mövcud olan boşluqlar nəzərdən keçirilərək təhsilin yalnız iqlim məlumatlılığını artırmaqla kifayətlənmədiyini, həm də yaşıl bacarıqların inkişafına və cəmiyyətlərdə davranışların dəyişdirilməsinə kömək edə biləcəyi əsaslandırılır. Bütün bunlara baxmayaraq, hesabatın mühüm narahatlıq doğuran məsələlərindən biri də təhsilin qlobal iqlim dəyişməsi fonunda zəif maliyyələşdirilməsidir.

**Təhsilin iqlim tədbirləri üçün katalizator rolu**

Hesabatda təhsilin qlobal miqyasda iqlim dəyişikliyi ilə bağlı məlumatlılığın və tədbirlərin genişləndirilməsində güclü vasitə olduğu vurğulanır. Qeyd olunur ki, təhsilə düzgün və məqsədyönlü investisiya edilməklə, iqlim tədbirlərinin miqyasını genişləndirmək mümkündür. Lakin bütün bu cəhdlərə baxmayaraq, 2021-ci ildə iqlim maliyyəsinin yalnız 1.5%-i təhsilə ayrılmışdır ki, bu da narahatlıq doğurur. Təhsilin həm düşüncələri, yanaşmaları formalaşdırmaq, həm davranışları dəyişmək, həm də innovasiyaları stimullaşdırmaq qabiliyyəti yüksəkdir. Lakin aşağı səviyyəli maliyyələşdirmə ilə təhsilin potensialı tam reallaşdırıla bilməz. Həmçinin, hesabat əlavə bir il təhsilin iqlim məlumatlılığını 8.6% artırdığına diqqət çəkir.
Bundan əlavə iqlim tədbirlərinə yönəlmiş təhsil proqramları da mühüm əhəmiyyət kəsb edir. Belə ki, təhsil proqramları vasitəsilə şagirdlərə iqlim haqqında məlumatların çatdırılması, cəmiyyətdə ekoloji davranışların təşviq edilməsi kimi addımların vacibliyi vurğulanır. Avropada aparılan araşdırmalar göstərir ki, təhsildə əlavə bir il iqlim dostu davranışlarını 5.8% artıb. Bu da təhsilin cəmiyyətin ekoloji şüurunun formalaşmasında əvəzolunmaz rol oynadığını bir daha təsdiqləyir.

**İqlim dəyişikliklərinin təhsil sistemlərinə təsiri**

İqlim dəyişikliyinin təhsil sistemlərinə mənfi təsirləri xüsusilə aşağı gəlirli ölkələrdə daha qabarıq şəkildə müşahidə olunur. Hesabatda vurğulanır ki, iqlimlə əlaqəli hadisələr məktəblərin fəaliyyətində ciddi pozulmalara səbəb olur. Bu da təhsilalanların öyrənmə prosesinə mənfi təsir göstərir. Eyni zamanda hesabatda aşağı gəlirli ölkələrdə hər il orta hesabla 18 gün dərs iqlimlə bağlı pozulmalar nəticəsində itirilir, halbuki yüksək gəlirli ölkələrdə bu rəqəm cəmi 2.4 gündür.
Bundan əlavə hesabatda Braziliya nümunəsi də əks olunur.  Qeyd olunr ki, burada aşağı gəlirli ailələrdən olan şagirdlər iqlim səbəbindən öyrənmə vaxtlarının orta hesabla 0.5 ilini itirirlər. Məhz itirilən vaxtlar təhsil nailiyyətlərinə ciddi təsir göstərir ki, bu da gələcək əmək bazarına hazırlığın zəifləməsi kimi nəticələrə gətirib çıxara bilər. Bu səbəbdən də hesabatda itkilərin qarşısını almaq üçün təhsil sistemlərinin bu cür təsirlərə aşağı maliyyə ilə uyğunlaşması ilə bağlı tədbirlər tövsiyə olunur.
Bu tədbirlər arasında məktəblərdə temperaturun tənzimlənməsi, infrastrukturun dayanıqlılığı və məktəblərin bağlanması hallarında məsafədən təhsilin təşkil edilməsi kimi təkliflər yer alır. Həmçinin bu uyğunlaşma tədbirləri hər bir təhsilalan üçün 18.51 ABŞ dollarından 101.97 ABŞ dollarına qədər maliyyə tələb etməsi hesabatda qeyd olunur.

**Təhsilin davranış dəyişikliklərinə təsiri**

Təhsilin iqlim dostu davranışlarını necə təşviq etdiyi də hesabatda mühüm mövzulardan biridir. Vurğulanır ki, təhsil yalnız iqlim haqqında məlumatlılığı artırmaqla qalmır, həm də iqlimlə əlaqədar fəaliyyətləri təşviq edir. Əlavə bir il təhsilin iqlim dostu davranışlarının 5.8% artırması Avropada aparılan tədqiqatlar yer alır. Bu da təhsilin ekoloji davranışları formalaşdırmaqda əsas vasitələrdən biri olduğunu sübut edir.



Bununla yanaşı Hindistanda aparılan təsadüfi nəzarət sınaqları nəticəsində uşaqlara iqlim dəyişikliyi ilə bağlı təhsil verildikdə, onların valideynlərinin iqlim dostu davranışlarında 13% artım müşahidə edilmişdir. Bu da uşaqların cəmiyyətdə və ailədə dəyişiklik agentləri kimi çıxış etmə potensialını vurğulayır. Eyni zamanda təhsilin yalnız fərdi səviyyədə deyil, həm də icmalar və siyasi səviyyədə iqlim siyasətlərini formalaşdıra biləcəyi də hesabatda vurğulanır. Məsələn, Avropada hər əlavə il təhsil yaşıl siyasətləri dəstəkləyən seçkilərdə 3.6% artıma səbəb olur ki, bu da sistemli, məqsədyönlü iqlim siyasəti dəyişikliklərinə yol açır.

**Yalan məlumatlar və məlumat boşluqları**

Hesabatda qeyd olunan başqa bir vacib məsələ isə yalan məlumatların yayılmasıdır. Bu vəziyyət, xüsusilə aşağı və orta gəlirli ölkələrdə iqlim tədbirlərinin qarşısını alan əsas faktorlardan biridir. Məsələn, Banqladeşdə müəllimlərin 47%-i və Uqandada 41%-i iqlim dəyişikliyinin media tərəfindən şişirdildiyini düşünür. Bu da həmin ölkələrdə iqlim məlumatlılığında ciddi boşluqların olduğunu göstərir.

Bundan əlavə, aşağı və orta gəlirli ölkələrdə insanların yalnız 65%-i iqlim dəyişikliyindən xəbərdardır. Bu da onu göstərir ki, bu ölkələrdə insanların iqlim tədbirlərinə dair məlumatlılığında ciddi çatışmazlıqlar var. Məlumat boşluğu isə daha çox gənclər arasında nəzərə çarpır. Məsələn, Banqladeşdə təhsilalanların 88%-i iqlim dəyişikliyinə qarşı tədbirlərdə iştirak etmək istəsələr də, yalnız 32%-i iqlimlə bağlı verilən sualları düzgün cavablandıra bilmişdir. Məhz bu boşluğun aradan qaldırılması təhsilin iqlim tədbirlərində rolunu daha da gücləndirə bilər.

**Yaşıl bacarıqlar və əmək bazarı**

Yaşıl iqtisadiyyata keçid hesabatın əhəmiyyətli hissələrindən biridir. Odur ki, hesabatda yaşıl bacarıqların inkişafı ilə bağlı məsələlərə geniş yer ayrılmışdır. Belə ki, qlobal miqyasda yaşıl keçidlərin 2030-cu ilə qədər 100 milyon yeni iş imkanlarının yaranmasına səbəb olacağı, eyni zamanda 78 milyon mövcud iş yerinin ixtisar olunacağı proqnozlaşdırılır. Bu isə ciddi təlim və bacarıq artırılmasına ehtiyac olduğunu göstərir.

Bununla belə aşağı və orta gəlirli ölkələrdə yaşıl bacarıqların yalnız ali təhsil və ya STEM sahələri ilə məhdudlaşdırıldığına dair yanlış təsəvvürlər mövcuddur. Halbuki yaşıl bacarıqlar texniki, sosial, emosional və sektorlararası bacarıqları əhatə edir. Həmçinin, yalnız STEM sahələrində deyil, bir çox sənaye sahələrində mövcuddur.

**Təhsil sistemlərinin uyğunlaşma çətinlikləri**

Hesabat təhsilin iqlim dəyişikliyinin mənfi təsirlərindən qorunması üçün dərhal tədbir görməyi tövsiyə edir. Təkliflər arasında infrastrukturun dayanıqlılığını gücləndirmək, məsafədən təhsil imkanlarını genişləndirmək, müəllimlərin iqlim mövzularında bilik və bacarıqlarını artırmaq yer alır. Hesabatda qeyd olunur ki, 2022 ilə 2024-cü illər arasında 81 ölkədə 404 milyon tələbə iqlimlə bağlı məktəb bağlanmalarından təsirlənmişdir. Bu isə geniş miqyaslı pozuntuların qarşısını almaq üçün təcili tədbirlərin görülməsini tələb edir.

**Nəticə**

"Gələcəyimizi seçmək: İqlim dəyişikliyi üçün təhsil" hesabatı iqlim dəyişikliyi ilə mübarizədə təhsilin mühüm rolunu vurğulayır. Eyni zamanda, hesabat sübutlar və statistikalara əsaslanan arqumentlər vasitəsilə, hökumətləri təcili olaraq təhsilin iqlim strategiyalarına inteqrasiya edilməsinə çağırır. Bu yolla milyonlarla gəncin potensialı açılacaq, yaşıl iqtisadiyyata keçid üçün işçi qüvvəsi hazırlanacaq və təhsil sistemləri iqlim dəyişikliyinin mənfi təsirlərindən qorunacaqdır.

Mənbə: Sabarwal, S., Marin, S. V., Spivack, M., & Ambasz, D. (2024). Choosing our future: Education for climate action. World Bank Publications.

# Çətin kontekstlərdə təhsilin təşviqi: Təcrübələrdən öyrənilən dərslər

Təhsil münaqişə, siyasi qeyri-sabitlik və mülki sahənin məhdudlaşdırılması kimi çətin şəraitlərdə fəaliyyət göstərərkən, bir çox əhəmiyyətli problemlərlə üzləşir. Belə mühitlərdə keyfiyyətli təhsilin təşviqi xüsusilə mürəkkəb və çətin olur. Qlobal Təhsil Tərəfdaşlığı (GPE) tərəfindən hazırlanmış cari hesabatda Qlobal Təhsil Tərəfdaşlığı (GPE) tərəfindən maliyyələşdirilən "Education Out Loud" (EOL) təşviq və sosial məsuliyyət fondu 60-dan çox ölkədə, xüsusilə zəif, münaqişədən əziyyət çəkən və ya məhdud mülki sahə ilə üzləşən ölkələrdə təhsil təşviqçilərinə dəstək verir.
Bu hesabat Development Studies Institute (IDS) ilə əməkdaşlıq çərçivəsində həyata keçirilən fəaliyyət tədqiqatı nəticəsində əldə edilən əsas dərsləri təqdim edir. Təhsil təbliğatçıları çətin kontekstlərdə həm təhlükəsizliklərini təmin etmiş, həm də təbliğat məqsədlərinə necə nail ola biləcəklərini öyrənmişlər.
Fəaliyyət tədqiqatı təcrübəçilərin bir-birilərindən öyrənməsinə və praktik biliklərin inkişaf etdirilməsinə yönəlmiş bir yanaşmadır. Qlobal Təhsil Tərəfdaşlığı (GPE) 2022-2023-cü illər ərzində “Development Studies Institute” (IDS), "Education Out Loud" (EOL) ilə əməkdaşlıq çərçivəsində münaqişədən təsirlənən, siyasi qeyri-sabitlik yaşayan və vətəndaş məkanının məhdud olduğu 15 ölkədə tədqiqat aparmışdır. Qeyd olunan ölkələrdə fəaliyyət göstərən tərəfdaş təşkilatlarla birgə aparılmış bu tədqiqatın əsas məqsədi, təbliğatçıların bir-birilərindən öyrənərək daha səmərəli və təhlükəsiz təbliğat aparmalarına dəstək olmaqdır.
Tədqiqat fərdi müsahibələrlə başlayaraq beş kiçik qrupun formalaşdırılması ilə davam etmişdir. Belə ki, qruplar ortaq çətinliklərə əsasən bir araya gələrək, virtual müzakirələr aparmış və iştirakçılar təcrübələrini bölüşmüşlər. Prosesin sonunda üç günlük üzbəüz seminar keçirilmişdir. Seminarda iştirakçılar fikirlərini paylaşaraq, təbliğat mühitində qarşılaşdıqları çətinliklərə uyğun strategiyalar hazırlamış və videoçarxlar vasitəsilə əsas mesajlarını ictimaiyyətə çatdırmışlar.

**Təhsil təbliğatçılarının üzləşdiyi çətinliklər**

Çətin mühitlərdə təhsil təbliğatı aparan təbliğatçılar müxtəlif problemlərlə üzləşirlər. Seminar iştirakçıları bu çətinlikləri aşağıdakı başlıqlar altında qruplaşdırmışlar:

- **Siyasi və hüquqi repressiya:** Bəzi hökumətlər təbliğatçıları təhdid olaraq görür və vətəndaş cəmiyyətinin fəaliyyətini məhdudlaşdıran hüquqi çərçivələr tətbiq edirlər.
- **Zorakı münaqişələr və məcburi köçkünlük:** Müharibələrdən əziyyət çəkən ölkələrdə, məsələn, Somalidə klan zorakılığı və təbii fəlakətlər (quraqlıqlar və daşqınlar) təhsilin təbliği işini ciddi şəkildə məhdudlaşdırır.
- **Məhdud vətəndaş məkanı:** Demokratiya ilə idarə olunan bəzi ölkələrdə belə hökumətlər vətəndaş cəmiyyətinə qarşı təzyiqlər tətbiq edərək birləşmək, toplaşmaq və söz azadlığını məhdudlaşdıran qanunvericilik qəbul edirlər.

Bu çətinliklər də təhsilin keyfiyyətinin artırılmasına maneə yaradır. Bir çox təbliğatçılar bu mühitlərdə “sıfırdan başlamaq” məcburiyyətində olduqlarını bildirirlər.

**Çətin kontekstlərdə təbliğatın idarə edilməsinə dair əsas dərslər**

Fəaliyyət tədqiqatı iştirakçıları çətin şəraitlərdə təbliğatın effektiv aparılması üçün beş əsas strategiya müəyyən etmişlər:

1. **Güc münasibətlərini anlamaq:** Siyasi landşaftın mürəkkəbliyini nəzərə alaraq, güc analizi və güc xəritələşdirməsi aparmaq vacibdir.
2. **Vətəndaş cəmiyyətinin dəstəyindən faydalanmaq:** Vətəndaş cəmiyyəti ilə əməkdaşlıq quraraq təbliğatın daha strateji və effektiv olmasını təmin etmək olar.
3. **Uyğunlaşa bilən təbliğat strategiyaları yaratmaq:** Müxtəlif metodlardan istifadə edərək, təbliğatın davamlı şəkildə öyrənilməsi və kontekstə uyğunlaşması vacibdir.
4. **Hökumətlə güvən quraq:** Hökumət rəsmiləri ilə uzunmüddətli etimad yaratmaq təbliğatçılara təsir qazanmaq və əməkdaşlığı gücləndirmək üçün mühüm bir addımdır.
5. **Vətəndaş məkanını qoruyun:** Birləşmək, toplaşmaq, söz azadlığını qorumaq, təhlükəsiz və effektiv təbliğatın təməlini təşkil edir.



Bu strategiyalar hər nə qədər sadə görünsə də, onları həyata keçirmək mürəkkəb siyasi analiz, diqqətli planlama və adaptiv idarəetmə tələb edir.

**Təbliğatçılar üçün yaşama strategiyaları**

Seminar iştirakçıları təbliğat fəaliyyəti zamanı özlərinin və təşkilatlarının təhlükəsizliyini təmin etmək üçün bir sıra yaşama strategiyaları hazırlamışlar. Bu strategiyalar, fəaliyyətlərin davam etməsini təmin etmək üçün kontekstin diqqətlə təhlilini və müxtəlif balanslaşdırma addımlarını əhatə edir. Həmçinin seminar zamanı hazırlanan videoçarxlar vasitəsilə təbliğatçılar öz tərəfdaşları ilə əlaqə qurmaq və təbliğat fəaliyyətlərini daha səmərəli aparmaq üçün xüsusi “Müzakirə Bələdçisi” hazırlanmışdır.

**Nəticə**

IDS tərəfindən həyata keçirilən fəaliyyət tədqiqatı prosesi, təhsil təbliğatçılarına yeni anlayışlar qazandırmaqla yanaşı, peşəkar inamlarını artırmış və həmkarları ilə daha güclü əlaqələr qurmağa imkan yaratmışdır. Eyni zamanda, iştirakçılar strateji planlaşdırma bacarıqlarını inkişaf etdirərək, çətin kontekstlərdə təhlükəsiz şəkildə fəaliyyətlərini davam etdirmə yollarını öyrənmişlər. Belə ki, vətəndaş məkanının qorunması təhsil təbliğatçılarının təhlükəsiz və effektiv fəaliyyət göstərmələri üçün mühüm əhəmiyyət kəsb edir.

Həmçinin, çətin və məhdud mühitlərdə işləyən təbliğatçılar üçün öyrənilən dərslərin, qlobal miqyasda təhsil təcrübəçilərinə dəyərli mənbə kimi xidmət edə biləcəyi hesabatda vurğulanır. Belə ki, davamlı öyrənmə və adaptasiya təbliğatçıların qarşılaşdıqları çətinliklərin öhdəsindən gəlmələrinə və təhsil sahəsində keyfiyyətli təbliğat aparmalarına dəstək olacaqdır.

Mənbə: McGee, R. (2024, September 11). Advocating for education in challenging contexts:
Lessons from practitioners. Global Partnership for Education.
https://www.globalpartnership.org/blog/advocating-education-challenging-contexts-lessons-practitioners